yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur










2 EYNİ İL

3 İLİ YOLA SALDIQ, BƏS HESABATINI ETDİKMİ?

4 YUSİF ZİYA TALIBZADƏ

5 DİL PROBLEMİ MƏKTƏBLƏRİN DİREKTORSUZ QALMASINA SƏBƏB OLUR

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

31 DEKABR 2018-Cİ İL

№021 (80)

## PREZİDENT SALOME ZURABİŞVİLİ MÜŞAVİRLƏRİ VƏ KOMANDASININ BƏZİ ÜZVLƏRİNİ TƏQDİM EDİB



Prezident Salome Zurabişvili dekabrın 24-ü müşavirləri və komandasının bəzi üzvlərini təqdim edib. Prezident Administrasiyasının rəhbəri Laşa Jvania təyin olunub. Administrasiyanın rəhbər müavini isə Ketevan Maxaraşvili təyin edilib. O həmçinin Gürcüstan prezidentinin milli azlıqlar və gender bərabərliyi ilə bağlı fəaliyyətini də koordinasiya edəcək. K.Maxaraşvili müvəqqəti olaraq mətbuat katibi vəzifəsini də icra edəcək.

Prezidentin parlament üzrə katibi Dmitri Qabunia, məhdud imkanlı şəxslərin işi üzrə müşaviri Simon Petridis, diaspor və vətəndaşlıq üzrə müşaviri isə Natia Sulava təyin olunub.

Akia Barbakadze hərbi məsələlər üzrə, İrina Şenqeliya ictimaiyyət və media ilə əlaqələr üzrə, Kote Natsvlişvili isə mədəniyyət, təhsil və elm sahələri üzrə prezidentin müşavirləri təyin ediliblər.

Qeyd edək ki, K.Maxaraşvili bu vaxta qədər Zurab Jvania adına Dövlət İdarəçilik Məktəbinin direktoru vəzifəsini yerinə yetirib.

## TÜRKİYƏNİN VİTSE-PREZİDENTİ GÜRCÜSTANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞÜB



Türkiyənin vitse-prezidenti Fuat Oktay Gürcüstana səfəri çərçivəsində baş nazir Mamuka Baxtadze ilə görüşüb.

Gürcüstanın baş nazirinin mətbuat xidmətinin məlumatına əsasən, görüşdə ikitərəfli münasibətlərin inkişaf perspektivləri müzakirə olunub. Tərəflər iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğulayıblar.

Görüşdə, həmçinin regionda həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat, infrastruktur və logistik layihələr barədə fikir mübadiləsi aparılıb, bu layihələrin həyata keçirilməsində daha fəal olmaq barədə razılıq əldə olunub.

Mamuka Baxtadze Türkiyə Cümhuriyyətinin vitse-prezidentinin Salome Zurabişvilinin andiçmə mərasimində iştirakını yüksək qiymətləndirib, bunun iki ölkə arasındakı möhkəm tərəfdaşlığın parlaq nümunəsi olduğunu vurğulayıb.

## GÜRCÜSTANIN YENİ KONSTİTUSİYASI QÜVVƏYƏ MİNİB




Salome Zurabişvilinin andiçmə mərasimindən sonra Gürcüstanın yeni Konstitusiyası qüvvəyə minib. 11 fəsil və 78 maddədən ibarət olan Konstitusiya insan haqları standartlarını müəyyən etməklə yanaşı, həm də hakimiyyət qolları arasında səlahiyyətləri müəyyən edir.

Konstitusiyaya edilmiş əsas dəyişikliklər prezidentin seçilməsi qaydaları, parlamentin tərkibi, kənd təsərrüfatı torpaqları, parlament binasının yerləşməsi, nikahın tərifi və digər məsələlərlə bağlıdır.

Yeni Konstitusiyaya əsasən, 2023-cü ildən etibarən Gürcüstan prezidentini seçki kollegiyası seçəcək, 2020-ci ilə qədər majoritar sistem saxlanılacaq, lakin siyasi partiyaların parlament seçkiləri üçün birləşməklə bağlı bir imkanı olacaq, 2024-cü ildən isə ölkə proporsional sistemə keçəcək.

Sənədə əsasən, kənd təsərrüfatı torpağı sosial resurs kimi yalnız dövlətə, özünüidarəetmə vahidinə, Gürcüstan vətəndaşı və ya Gürcüstan vətəndaşlarının birliyinə məxsus ola bilər.

Konstitusiya ilə parlamentin yerləşdiyi yer də dəyişdirilib. Ali qanunda 2019-cu ilin yanvar ayından etibarən qanunverici orqanın yerləşdiyi yer Tbilisi şəhəri göstərilib.

Ali qanunda nikahın tərifi qadın və kişi arasında ailə qurmaq məqsədilə yaradılmış birlik kimi göstərilib. Qüvvədən düşmüş Konstitusiyada nikahın evlilərin bərabər hüquqları və könüllü istəyinə əsaslandığı yazılmışdı. Qeyd edək ki, Gürcüstan parlamenti Konstitusiyaya dəyişiklikləri 2017-ci ilin sentyabrında 117 səslə təsdiq edib.

## MAMUKA BAXTADZE: "TƏƏSSÜFLƏR OLSUN Kİ, GÜRCÜSTAN ƏHALİSİNİN BÖYÜK HİSSƏSİ YOXSUL VƏZİYYƏTDƏ YAŞAYIR"



"Təəssüflər olsun ki, Gürcüstan əhalisinin böyük hissəsi yoxsul vəziyyətdə yaşayır". Bunu Gürcüstanın baş naziri Mamuka Baxtadze hökumətin illik hesabatının təqdimatında bildirib.

O deyib ki, hökumət 2012-ci ildən başlayaraq ölkənin üzləşdiyi ən çətin problem olan yoxsulluğun aradan qaldırılması üçün real addımlar atıb: "Bizim bu məsələ ilə bağlı əhəmiyyətli nailiyyətlərimiz var. Biz yoxsulluğu 10 faizə yaxın azalda bilmişik. İşsizlik də əvvəllər olduğu kimi əsas iqtisadi problem olaraq qalır və bu, ölkəmizin sürətli inkişafı üçün çətin maneədir. Təbii ki, bizim üçün əsas vəzifə yoxsulluğun aradan qaldırılmasıdır".

M.Baxtadze Gürcüstanda əhəmiyyətli islahatların həyata keçirildiyini bildirib: "Əminəm ki, bu islahatlar bizə yoxsulluq problemini həll etməyə kömək edəcək, lakin bunun üçün zaman tələb olunur".

Baş nazir yoxsulluqla yanaşı Gürcüstan ərazilərinin işğalını da ölkə qarşısında dayanan ən ağrılı problem adlandırıb.

"Milli vəzifəmiz hər iki problemin öhdəsindən birgə səylərlə gəlmək və hər bir vətəndaşın bu məsələ ətrafında birləşməsinə nail olmaqdır. Hamı Gürcüstanda yoxsulluğun olmamasını və layiqli həyat sürmək imkanının olmasını arzu edir", - deyə M.Baxtadze bildirib.



# EYNİ İL

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

*Adam var dərdi Yeni ili harada qeyd edəcəyindən ibarətdir. Adam da var Yeni ili qeyd etmək bir dərddir. Böyük Lev Tolstoyun məşhur "Bütün ailələr eyni cür xoşbəxtdir, bədbəxt ailələrinsə hərəsi bir cür bədbəxtdir" sözlərini də əlavə etsək fikri ümumiləşdirmiş olarıq məncə.*

Dərdi Yeni ili harada və necə qeyd etməkdən ibarət olan "xoşbəxt" ailələri öz dərdləri ilə baş-başa qoyub, keçək evində "axta zoğal da" (ifadə M.P.Vaqifindir) olmayanların tərəfinə. (Tərəfinə keçək deyəndə birini inkar edib, digərini qəbul edərək tərəfkeşlik saxlamıram).

Bütün bayramlar gözəldir – Yeni ili də, Novruzu da, Ramazanı da, Qurbanı da, 8 Martı da, 9 Mayı da və sair. Bütün bayramlar ona görə gözəldir ki, insanlar yorucu iş günlərindən heç olmasa bir neçə günlük azad olub ailəsi ilə birgə istirahət edir, sevinir, dostları, qohumları ziyarət edirlər; ruzilərindən ehtiyacı olanlarla paylaşırlar; acların qarnı doyur, uşaqların üzü gülür, qocalar uzaqda olan evladlarını, nəvələrini görüb sevinir və sair və ilaxır. Bütün bunların gözəl olduğunu heç kəs inkar edə də bilməz. Bir də var bu gözəlliklərin nəyin bahasına başa gəlməsi. Ümumiyyətlə, bizdə nə edilirsə bəsə girməklə, "qonşudan dala qalmamaq", "onun var, mənim də olsun", "o etdi, mən də edim", "eldən ayıbdır", "camaat nə deyər" üçün edilir. Yəni "mənim istəyimə, rahatlığıma, ovqatıma, bacarığıma, cibimə görə" edilmir. Elə ona görə də, evlərimiz hamısı bir-birinə oxşayır – iki, üç mərtəbəli zövqsüz evlər, yanında da "əl damı" deyilən bir otaq. Və ömrümüz-günümüz dəridən, qabıqdan çıxaraq tikdirdiyimiz o fil boyda evlərdə deyil, həmin o "əl damlarında" keçir. Niyə? Çünki insanın rahatlığı üçün o isti "olacaqlar" yetərlidir. İçində yaşamadığımız fil boyda evləri isə bəsə girmək üçün tikdiririk, özü də necə tikdiririk – bir ömür zəhmətin qazancı ilə, borcla, kreditlə. Elə ona görə də sürdüyümüz maşınlar eynidir. Elə ona görə də geyimimizdən tutmuş, seçdiyimiz universitetə, seçdiyimiz ixtisasa qədər hamısı eynidir.

Demək istədiyim odur ki, biz bayramları da bu cür qeyd edirik. Orta götürsək 300-400 lariyə başa gələn Yeni ildə o qədər yemək bişir ki, adam bilmir nə yesin, necə yesin ki, Allaha da, bəndəyə də xoş gəlsin. Biz həm də çox israfçıyıq. İsrafçılığımızda da seçilirik. Məsələn, iştahımıza düşən yeməklərin hamısını bir gündə hazırlayırıq. Guya ki, o yeməklərdən bayram olmayan günlərdə bişirsək və yesək o sayılmır. Guya ki, o yeməklərdən başqa gün bişirməyə və yeməyə vaxt yoxdur, pul yoxdur. Bir gündə bişən yeməkləri yeyib qurtarmaq da olmur, nəticədə xarab olur və tökülür. Bu, toylarımızda da belədir. Bütün bunlar hamısı israfçılıq etmək üçün borca-xərcə girmək, israfçılıq uğrunda yarışmaqdır. Həzrət Əli "İsrafçılıq yoxsulluğun başlanğıcıdır" buyurub. Belə çıxır ki, yoxsulun, kasıbın borca girərək bayram günü evindəki bütün qazanları asması, israfçılıq etməsi müflisliyin başlanğıcıdır. Elimizdən, obamızdan iraq. İraq demişkən, İraq hökuməti də Milad bayramını ölkənin rəsmi bayramı elan etdi. Sağ əli Novruzun başına.

*Süfrəniz həmişə bol və bərəkətli olsun, əziz oxucu. Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə qəzetimiz adından hər birinizi təbrik edirik! Yeni ildə hər sahədə yenilənməyi arzu edirik! Arzu edirik ki, eyniliklərdən yeniliklərə doğru dəyişikliklər olsun! İlimiz eyni yox, doğrudan da yeni olsun. Yazını böyük Nəsiminin beyti ilə tamamlamaq istəyirəm: "Ey bülbüli-qüdsi, nə giriftari qəfəssən? Sındır qəfəsi, təzə gülüstan tələb eylə". Təzə ildə təzə gülüstan arzusu ilə 2019-cu ilin soyuq yanvarında yeni nəfəslə görüşənədək.*

## ƏCNƏBİLƏRƏ MƏXSUS ƏKİLİB-BECƏRİLMƏYƏN KƏND TƏSƏRRÜFATINA YARARLI TORPAQLAR ONLARDAN MÜSADİRƏ OLUNA BİLƏR

Xarici ölkə vətəndaşlarına məxsus, lakin istifadə olunmayan kənd təsərrüfatına yararlı torpaqlar onlardan müsadirə oluna bilər. Bu barədə Gürcüstan parlamentinin Kənd təsərrüfatı komitəsinin sədri Otar Danelia bildirib.

Onun sözlərinə görə, əcnəbilər onların mülkiyyətində olan kənd təsərrüfatı torpaqlarını mütləq əkib-becərməli olacaqlar.

"Xarici vətəndaşların Gürcüstanda aqrar torpaq sahələrinə malik olması problem deyil. Problem ondan ibarətdir ki, bu, onların üzərinə heç bir öhdəlik qoymur. Bir çox hallar var ki, əcnəbilər böyük torpaq sahələrinə sahibdirlər, lakin həmin torpaqları əkib-becərmirlər və bununla bağlı onların heç bir öhdəliyi yoxdur", - deyə komitə sədri bildirib.

O.Danelia deyib ki, Gürcüstan parlamentində bu cür torpaq sahiblərinə qarşı müəyyən sanksiyaların, o cümlədən öhdəliklərin yerinə yetirilməyəcəyi təqdirdə, torpaqların müsadirə edilməsinin tətbiqi məsələsi müzakirə olunur.

Komitə sədri qeyd edib ki, Gürcüstanın ümumi torpaq fondu böyük deyil və hazırda, təxminən, 45000-50000 hektar aqrar torpaq sahələri əcnəbilərin mülkiyyətindədir.

## TAMAR JVANİA YENİDƏN MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ SƏDRİ SEÇİLİB



Gürcüstanın Mərkəzi Seçki Komissiyasına (MSK) sədr seçkisi keçirilib. Gizli səsvermə yolu ilə MSK-nın hazırkı sədri Tamar Jvania yenidən qurumun növbəti 5 il müddətinə rəhbəri seçilib.

Prezident Salome Zurabişvili MSK sədrliyinə T.Jvaniadan başqa, Mariam Şelegia və Vladimir Bojadzenin namizədliyini də təqdim edib.

T.Jvanianın namizədliyini səsvermədə iştirak edən 9 üzvün 8-i dəstəkləyib. Komissiyada təmsil olunan müxalif Avropalı Gürcüstan və Vahid Milli Hərəkat partiyalarının üzvləri səsvermə prosesində iştirakdan imtina ediblər. T.Jvania da səsvermə hüququndan yararlanmayıb.

Qeyd edək ki, T.Jvania 2013-cü ildən Gürcüstan MSK-ya rəhbərlik edir. Ali seçki qurumu sədrinin ikinci müddətə sədr seçilməsi ilk dəfə baş verib.

## ŞEYX VƏ MÜFTİ SEÇKİSİ KEÇİRİLİB



Ramin İgidov dekabrın 24-ü səsvermə yolu ilə yenidən Bütün Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) şeyxi seçilib. Səsvermədə bölgələri təmsil edən Ali Dini Şuranın üzvləri iştirak ediblər.

Seçki səsçoxluğu ilə namizədliyi təqdim olunan Ramin İgidov, Rahit Kərimov və Namiq Hüseynov arasında keçirilib.

Qeyd edək ki, Ramin İgidov 2013-cü ilin dekabr ayından GMİ-nin şeyxidir. O, nizamnaməyə əsasən 5 il müddətində bu məsuliyyətdə olacaq.

Dekabrın 26-sı isə Bütün Gürcüstan Müsəlmanları İdarəsinin mərkəzi ofisində Şərqi Gürcüstan müftisinin seçilməsi baş tutub. Seçkidə 21 şura üzvündən 19 nəfəri iştirak edib. Namizəd olaraq Yasin Əliyev təqdim edilib və şura tərəfindən yekdilliklə yenidən Şərqi Gürcüstan müftisi seçilib.

Qeyd edək ki, müftilik seçkisi hər 5 ildən bir həyata keçirilir.

## GÜRCÜSTANDA İŞƏGÖTÜRMƏ ZAMANI ETNİK VƏ DİNİ DİSKRİMİNASİYA QADAĞAN EDİLİR




Gürcüstan parlamentinin Hüquqi məsələlər üzrə komitəsində ölkənin Əmək Məcəlləsinə düzəlişlər ikinci oxunuşda müzakirə olunub.

Düzəlişlər layihəsi işəgötürmə zamanı istənilən əlamətə görə diskriminasiyaya qadağanın qoyulmasını nəzərdə tutur.

Qanun layihəsinə əsasən, vakansiyaların elan olunması zamanı və namizədlərin seçim mərhələsində dil, irqi, etnik, milli və sosial mənsubiyyətə görə ayrı-seçkilik qadağan olunacaq.

Sənədə əsasən, yaşa, cinsi oriyentasiyaya görə, məhdud imkanlı insanlara qarşı, dini, ictimai və ya siyasi təşkilatlara üzvlük, ailə vəziyyəti, siyasi və ya digər baxışlara görə diskriminasiya da yolverilməz olacaq.

Bundan başqa, ayrı-seçkiliyə qadağa işəgötürənin daxili nizam qaydaları, kollektiv müqavilə və digər sənədlərində də əksini tapmalıdır.

Qanun layihəsi qanunverici orqan tərəfindən qəbul olunandan və dövlət başçısı tərəfindən imzalanandan sonra qüvvəyə minəcək.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRLƏRİ ƏMƏKDAŞLIQLARINI DAVAM ETDİRMƏK ÜÇÜN BİRGƏ OPERATİV QRUPUN YARADILMASINA RAZILAŞIBLAR



Terrorizm və başqa təşkil edilmiş cinayətlərlə mübarizə, Türkiyə həbsxanalarında gürcü məhbusların hüquqlarının müdafiəsi, uşaq oğurluğu halları, hüquqi reformaların həyata keçirilməsi zamanı əməkdaşlıq, ekstradisiya məsələləri – bu, Ankarada Gürcüstanın ədliyyə naziri Tea Tsulukianinin Türkiyənin ədliyyə naziri Abdulhamit Gül ilə görüşü zamanı müzakirə etdiyi mövzuların bir hissəsidir.

Görüşün mövzusu Gürcüstan-Türkiyə arasında ikitərəfli əməkdaşlıq, həmçinin hüquqi baxımdan qarşılıqlı yardım, qanunvericilik sahəsinin reformalaşdırılması, penitensiar sistemlər arasında operativ əməkdaşlıq və digər vacib məsələlərlə bağlı olub.

Gürcüstanın ədliyyə nazirinin qeyd etdiyinə görə, 2018-ci ilin 13 aprelində Kopenhagen ministerialı çərçivəsində türk həmkarı ilə baş tutan görüşdən sonra bu dəfə baş tutan görüş sevindirici haldır.

“Bizim sonuncu görüşümüzdən sonra əməkdaşlıqla bağlı daha geniş areal yarandı, çünki iyulda parlament qanun qəbul etdi. Həmin qanuna əsasən, Gürcüstanın Ədliyyə və Cəzaçəkmə Nazirlikləri birləşdi. Bizim əməkdaşlığımızın ədliyyə, eləcə də cəzaçəkmə istiqamətində daha da yüksək pilləyə qalxması sizin də istəyinizdir”, - deyə Tea Tsulukiani həmkarı ilə görüşü zamanı bildirib.

Onun sözlərinə görə, əsas istiqamətlər ədalət, uşaq hüquqları, təşkil edilmiş cinayətlə mübarizə və ümumiyyətlə, Avropa İttifaqı ilə vizasız gediş-gəlişin yaranması üçün Gürcüstanda həyata keçirilən bütün reformalar zamanı Ədliyyə Nazirliyinin təcrübə topladığı və tərəfdaş ölkələrlə bu təcrübəni bölüşməyə hazır olduğudur.

“Məlumdur ki, hüquq reformasının strategiyası üzərində çalışmağa başlayırsınız. Biz artıq bir neçə dalğanı keçmişik, uğurlar və çətinliklər də var idi. Mənim üçün dərslər də var idi və bu təcrübəni lazım olarsa sizinlə bölüşməyə sevinərəm. Bizim ölkələrin coğrafi yerləşməsinə görə gündəlik problemlər qarşısında dururuq. Ona görə də təklif edirəm ki, iki nazirlik arasında operativ məsələlərə reaksiya göstərmək üçün konkret şəxslər və ya şəxslər qrupu ayıraq ki, bizim aramızda ünsiyyət daha az bürokratik şərtlərlə sürətli olsun. Türkiyənin Gürcüstanda xanım Fatma Ceren Yazqan kimi möhtəşəm səfiri var. Eləcə də Gürcüstanın Türkiyədəki səfiri cənab Giorgi Cancğava vəzifəsini yüksək səviyyədə yerinə yetirir. Onlar yenə də səmərəli əməkdaşlığımız sahəsində bizə yardım etməyə davam edəcəklər”, - bildirib Tea Tsulukiani.

Abdulhamit Gül qeyd edib ki, iki nazirlik arasında operativ əməkdaşlıq və birgə işçi qrupunun yaradılması ideyasını alqışlayır və bunun üçün konkret şəxslər ayırmağa hazırdır.

“Hesab edirəm ki, Cəzaçəkmə və Ədliyyə Nazirliklərinin birləşdirilməsi düzgün qərardır. Əlbəttə sizin yükünüz artıb və istəyirəm sizə uğurlar arzulayım. Türkiyənin bu məsələdə böyük təcrübəsi var. Bu gün 260 000 məhbusumuz var və bu istiqamətdə təcrübəmizi bölüşməyə hazırıq”, - deyə Türkiyənin ədliyyə naziri bildirib.

Onun sözlərinə görə, təşkil edilmiş cinayətlə, xüsusilə də terrorizmlə mübarizə məsələlərində Gürcüstan və Türkiyə arasında əməkdaşlığın daha da gücləndirilməsi olduqca vacibdir.

Görüşün sonunda Abdulhamit Gül Tea Tsulukianini 1 iyunda Kapadokiyada keçiriləcək “Nino günləri”nə dəvət edib. Gürcüstanın ədliyyə naziri də qarşılığında türk həmkarını Gürcüstana səfərə dəvət edib və Svanetini seyr etməyi təklif edib.

Səfərin yekununda Gürcüstanın ədliyyə naziri türk həmkarı tərəfindən təşkil olunmuş nahar yeməyində iştirak edib.

Hazırladı: Aynurə Əliyeva

## TÜRKİYƏ SƏFİRİ DİNİ MƏSƏLƏLƏR ÜZRƏ YENİ MÜŞAVİRİNİ TƏQDİM EDİB



Gürcüstan Hökumət Administrasiyasında Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze Türkiyənin Gürücüstandakı fövqəladə və səlahiyyətli səfiri Fatma Ceren Yazqan və onun dini məsələlər üzrə müşaviri Ahmet Erdemlə görüşüb.

Görüşdə Türkiyə səfiri rəsmi olaraq özünün dini məsələlər üzrə yeni müşaviri Ahmet Erdemi təqdim edib. Xatırladaq ki, Ahmet Erdem yeni vəzifəsində Nebi Gümüşü əvəz edib.

Zaza Vaşakmadze Ahmet Erdemə gələcək işlərində uğurlar arzulayıb. Görüşdə Gürcüstanda yaşayan müəslmanların problemləri və ehtiyacları müzakirə olunub. Həmçinin Dini Məsələlər üzrə Dövlət Agentliyinin və müsəlman idarələrinin aktiv əməkdaşlığı, mövcud məsələlərin həlli üçün onların qoşulmasının əhəmiyyəti xüsusi qeyd olunub.

## İSTANBULDA AVRASİYA FƏTVA MƏCLİSİNİN III TOPLANTISI KEÇİRİLİB

Cari ilin 22-23 dekabrında İstanbulda Türkiyənin Dini Məsələlər üzrə İdarəçiliyinin təşkilatçılığı ilə Avrasiya Fətva Məclisinin toplantısı baş tutub. Toplantıda Gürcüstandan Bütün Gürcüstan Müsəlmanları İdarəsinin müftiləri Beqlar Kamaşidze, Yasin Əliyev və BGMİ-nin şeyxi Ramin İgidov iştirak edib.

İki gün davam edən toplantıda günümüzdə mövcud olan iqtisadi məsələlər və problemlər haqqında müzakirələr aparılıb. Qeyd edək ki, Avrasiya Fətva Məclisi il ərzində bir dəfə toplanır və bu, sayca üçüncü görüş idi.



## İLİ YOLA SALDIQ, BƏS HESABATINI ETDİKMİ?



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

*Əziz oxucu, bilmirəm sən bu qəzeti nə zaman əldə etmisən və bu yazını nə zaman oxuyursan, ona görə də çalışacam ki, ümumi bir formada yazım. Əsas olaraq Yeni il və bayramlar və bu bayramları qeyd etməmiz fonunda yazmaq istədim.*

Bilindiyi kimi bayramlar sevinc, şənlik və xoşbəxtlik günləridir. Hər cəmiyyətin özünəməxsus dini və milli bayramları vardır. Milli bayramlar tarixin səhifəsinə həkk olmuş böyük hadisələri xatırlamamıza, düşmənlərimizlə olan münasibətlərimizdə tutduğumuz mövqeyi təkrar nəzərdən keçirməmizə yardımcı olur. Bunları isə, bir mərasim şəklində qeyd edirik.

Bir də elə bayramları qeyd edirik ki, nə bayramı olduğunu, kimin bayramı olduğunu belə bilmirik. Yaşadığımız ölkədə müxtəlif millətlərin və dinlərin nümayəndələri vardır və bu müxtəliflərin də müxtəlif bayramları və ya hüzn günləri vardır. İşin maraqlı yönü orasıdır ki, bunlardan heç biri bizim nə bir bayramımızı, nə də bir hüzn günümüzü anmadıqları halda, bizlər onların bayramını canfəşanlıqla qeyd edirik. Həm də onların özlərindən belə yüksək səviyyədə qeyd edirik.

Bu günlərdə miladi yeni il ərəfəsindəyik. Yəni ki, 2018-ci ili yola salıb 2019-cu ili qarşılayırıq. Yeni il gəlir, xoş gəlir, səfa gətirir. Biz də bu gəliş-gedişi elə qeyd edirik ki, elə bil əzizimizi qarşılayıb, yola salırıq. Bəs görəsən bu ili yola salarkən o ilin hesabatını edirikmi? Nə qazandıq, nə itirdik deyə düşünürükmü? O fişəngləri atanlar görəsən zamanın da o atdıqları fişəng kimi geri dönüşü olmadığını yadlarına salırlarmı? Ötən Yeni il ərəfəsində də yazdığım kimi, əslində yola saldığımız hər köhnə il də bir zamanlar bir yeni il idi. Bəs o illərdə nəyi əldə etdik, nəyi yola verdik getdi görəsən?

Elə ailələr olur ki, ildə iki dəfə ət almağa imkan etmədikləri halda banklardan yüzlərlə lari kredit götürüb bayram süfrəsi açırlar. Ancaq Qurban bayramı gəldikdə bir qoyun almağa imkanım yoxdur deyib yüzlərlə bəhanə uydururlar. Ramazan ayında iki oruclunun iftarını ver dedikdə uydurulan bəhanələri heç xatırlamaq belə istəmirəm. Ancaq bir gecə üçün bəzədiləcək kiçik bir şam ağacına yüzlərlə larini ödəməyə heyifləri belə gəlmir.

Hələ varlığı şübhə doğuran bir şaxta babanın gəlişini elə həyəcanla gözləyirlər ki, gəl görəsən. Öz dini və milli bayramlarında evlərindəki təzə paltarları geyinməyə ərinənlər Yeni il axşamı üçün xüsusi sifarişlə qırmızı paltar gətirdirlər.

Onu da qeyd edim ki, bu bir gecədə havayı yerə sərf olunan pullara neçə imkansız ailələrin, kimsəsiz uşaqların köməyinə çatmaq olar.

Bu gecə üçün düzənlənmiş konsertləri, bu konsertlərdə olunan rəftarları gördükdə isə insan sadəcə utanc hissi keçirir.

*Son olaraq bunu demək istəyirəm ki, gəlin bu ilin son günlərini içkidən, günah işlərdən bir az uzaq duraraq düşünməklə, təfəkkürlə keçirək. Görək bu il nə iş gördük? Allahın bizə verdiyi ömrü harada və necə keçirdik? Sabah bunun hesabı soruşulanda nə cavab verəcəyik? Uca Allah bu ömrü, bu qədər neməti bizə boş-boşuna verməyib axı.*

# OSMANLIDA, QAFQAZDA, BALKANLARDA VƏ ORTA ASİYADA QƏHRƏMANLIQ GÖSTƏRMİŞ HƏMYERLİMİZ – YUSİF ZİYA TALIBZADƏ



*Balkanlardan Orta Asiyaya qədər şərəfli bir mübarizə yolu keçmiş, Azərbaycan xalqının milli təfəkkürünün formalaşmasında mühüm xidmətləri olmuş və öz xalqının müstəqilliyi uğrunda şəhidlik mərtəbəsinə yüksəlmiş önəmli qəhrəmanlarımızdan biri də Yusif Ziya Talıbzadədir. Sovet dövründə bu mühüm şəxsiyyətin adının anılması qadağan edilmiş və unutdurulmağa çalışılmışdır. Bunun yerinə saxta qəhrəmanlar icad edilmiş, azərbaycanlılarla heç bir mənəvi əlaqəsi olmayan qeyri-milli ünsürlər Azərbaycan xalqının qəhrəmanına çevrilmişdir. Bu dövrdə də Yusif Ziya Talıbzadənin adı düşmən olaraq belə anılmamış, tamamilə zehinlərdən silinməyə çalışılmışdır.*

Yusif Ziya Talıbzadənin mənsub olduğu ailə bugünkü Marneuli rayonunun Sarvan kəndindəndir. Bu ailə bölgədə Axund uşaqları olaraq anılmışdır. Bunun səbəbi onun atasının Cənubi Qafqaz Müsəlmanları İdarəsi şeyxülislamının köməkçisi və din alimi olmasına görədir. Yusif Ziya ilk təhsilini Tbilisidə, atasının da müəllimlik etdiyi Rüşdiyə məktəbində almış və yüksək dərəcədə rusca, farsca və ərəbcə öyrənmişdir. 1894-cü ildə ailəsi ilə birlikdə Xorasana köçərək ali dini təhsil almış və məşhur Mirzə Cəfər mədrəsəsində oxumuşdur. Dini təhsilini İraqın Bağdad şəhərində tamamladıqdan sonra 1900-cü ildə Tbilisiyə, oradan da Bakıya dönmüşdür. O, qısa zamanda Hacı Zeynalabdin Tağıyev və Nəriman Nərimanovun diqqətini çəkmiş və onlarla yaxın dostluq əlaqələri qurmuşdur.

Talıbzadə 1901-ci ildə rus-tatar məktəbində şəriət müəllimliyi etmiş, eyni zamanda Azərbaycan dilinin qrammatikası ilə əlaqəli, o dövr üçün çox dəyərli olan “Təhsili-qəvaid” adlı kitab yazmışdır. Bundan əlavə Nəriman Nərimanovun “Nadir Şah” əsərini fars dilinə tərcümə etmişdir. XX əsrin əvvəllərində Azərbaycan milli mətbuatında Axund Yusif Talıbzadə imzasıyla bir çox məqaləsi yayımlanmışdır. İslam dini məsələlərinə dair 10-dan çox kitabı nəşr edilmişdir. Yusif Ziya ədəbiyyatla da yaxından maraqlanmış, milli ruhda şeirlər yazmış, “Ərmənusə” və “Əmir Xalid” adlı iki əsəri 1910-cu ildə səhnəyə qoyulmuşdur. 1906-1907-ci illərdə “İrşad” qəzetinin müxbiri olaraq Osmanlıya getmiş, oradan Bakıya “Türkiyə məktubları” adlı yazılar göndərmişdir. 1907-ci ildə Tağıyevin xahişi ilə yenidən İstanbula qayıtmışdır. Bu səfərinin səbəbi Osmanlı sultanı II Əbdülhəmidin taxta çıxmasının 32-ci ildönümü münasibəti ilə Tağıyevin xahişi ilə Məhəmməd Kərim Ağanın Azərbaycan dilinə tərcümə etdiyi və bahalı daş-qaşlarla bəzədilmiş Qurani-Kərimi sultana hədiyyə olaraq aparması olmuşdur.

Yusif Ziya 1911-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında önəmli rolu olan Müsavat Partiyasının qurucularından biri olmuşdur. O, 1912-ci ildə yenidən İstanbula qayıtmış və hərbi məktəbdə təhsil almışdır. Birinci Dünya müharibəsində Osmanlı ordusu tərkibində Qars-Ərdahan cəbhəsində ruslara və ermənilərə qarşı qəhrəmanca döyüşmüşdür. Balkan müharibəsində könüllü olaraq iştirak etmişdir. 1918-ci ildə erməni-bolşevik işğalı altında olan Bakını azad etmək məqsədi ilə Azərbaycana dönmüşdür. O, Əhməd bəy Ağaoğlunun hərbi müşaviri təyin edilmiş və könüllülərdən ibarət hərbi alayın başına gətirilmişdir. Osmanlı ordusunun Azərbaycana gəlməsi ilə birlikdə Yusif Ziya öz dəstəsi ilə bu ordunun tərkibində bolşevik-daşnaq quldurlarına qarşı mübarizə aparmış və Azərbaycanı işğaldan azad etmişdir.

1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin siyasi həyatında fəal rolu olan Yusif Ziya 1919-cu ildə Osmanlı dövlətinin rəsmi nümayəndəsi olaraq Təbrizə getmiş, orada “İttihadi-İslam” Cəmiyyətini qurmuşdur. Qızıl Ordunun Cənubi Qafqazı işğalından sonra Azərbaycan-İran sərhəddində həbs olunmuş, ancaq Nəriman Nərimanovun köməyi ilə sərbəst buraxılaraq Naxçıvana hərbi komissar təyin edilmişdir. Fəqət daşnaqların Naxçıvan torpaqlarında “haqq” tələb etməsi və Sovetlərin də bu məsələdə erməniləri dəstəkləyəcək mahiyyətdə səssiz qalmasına Talıbzadə öz etirazlarını dilə gətirmiş, 1922-ci ildə istefa edərək ailəsi ilə birlikdə Bakıya qayıtmışdır. O, Sovetlərə xidmət



etmək istəmədiyini və onlarla eyni qabdan yemek yeməyəcəyini bildirmişdir. Yusif Ziya Nərimanovun köməyi ilə ölkədən çıxış sənədi almış və ailəsi ilə bərabər Orta Asiyaya getmişdir. Orta Asiyada basmaçılar adlanan hərəkata qoşulmuş və Ənvər Paşanın köməkçisi olmuşdur. Yusif Ziya Talıbzadə 18 may 1923-cü ildə Ceyhun çayının kənarında Qızıl Orduyla girdiyi bir atışmada ağır yaralanmış, çayı keçmək istərkən boğularaq ölmüşdür.

*Talıbzadənin öldürülməsindən aylar sonra silahdaşlarından biri onun qanlı köynəyini və cibindən tapdığı, qanıyla qırmızıya boyanmış Qurani-Kərimi gizlicə Bakıya gətirmiş, Yusif Ziya Talıbzadənin qardaşı Abdulla Şaiqə vermişdir. Həmin Qurani-Kərim bu gün Abdulla Şaiqin ev müzeyində sərgilənməkdədir.*

***Cəfər MUSTAFALI***
*Mərmərə Universiteti, Türkiyat Elmi Araşdırmalar İnstitutu, Ümumi Türk Tarixi üzrə magistr tələbəsi*

## MƏKTƏBLƏRDƏ MÜƏLLİMLƏRİN SAYI ÖTƏN TƏDRİS İLİ İLƏ MÜQAYİSƏDƏ ARTIB

2018-2019-cu tədris ilinin başlanğıcında Gürcüstanın ümumi təhsil məktəblərində 67344 müəllim qeydiyyatdan keçib. Onun 58209 nəfəri qadın, 9135 nəfəri isə kişidir.

Gürcüstanın Milli Statistika Xidməti tərəfindən yayımlanan məlumata əsasən, ictimai məktəblərdə 59259, özəl məktəblərdə isə 8085 müəllim dərs deyir.

Qeyd edək ki, ötən ilin göstəriciləri ilə müqayisədə müəllimlərin sayı ümumi hesabda 710 dəfə artıb. 2017-2018-ci tədris ilinin başlanğıcında pedaqoqların sayı 66634 idi.

Tabloda 2017-2018 və 2018-2019-cu tədris ilinin başlanğıcında müəllimlərin özəl və ictimai məktəblərə görə və ölkə üzrə ümumi sayı göstərilmişdir:

**Gürcüstan üzrə ümumi təhsil müəssisələrində müəllimlərin sayı**

| | 2017-2018 | 2018-2019 |
|---|---|---|
| Müəllimlərin ümumi sayı | 66634 | 67344 |
| Qadın müəllimlər | 57552 | 58209 |
| İctimai məktəb müəllimləri | 59544 | 59259 |
| İctimai məktəblərin qadın müəllimləri | 51345 | 51130 |
| Özəl məktəb müəllimləri | 7090 | 8085 |
| Özəl məktəblərin qadın müəllimləri | 6207 | 7079 |

## RUSTAVİ MERİYASI TƏLƏBƏLƏRİN GEDİŞ HAQQINI ÖDƏYƏCƏK

Rustavi meriyası sosial müdafiəsiz və fərqlənən tələbələrin Rustavi-Tbilisi marşrutu ilə gediş haqqı üçün hesablarına hər ay 60 lari köçürəcək. Fərqlənən tələbələrin, həmçinin təhsil haqqını ödəyəcək. Bu haqda məlumatı Rustavi meriyasının sosial xidmət rəhbəri Nino Kviria bildirib.



“Gediş haqqının maliyyələşdirilməsi və tələbələrin həvəsləndirilməsi üçün ümumilikdə 80 000 lari ayrılacaq. Büdcəmizin ilin sonuna qədər yetərli olmasını nəzərə almışıq və ona görə də, əgər müraciət olarsa və tələbə dərslərdə yaxşı iştirak edərsə büdcəyə məbləğ artırmaq problem olmayacaq. Əsas odur ki, tələbə dərslərdə yaxşı iştirak etsin. Düşünürəm ki, balı qaldırmaq diskriminasiya deyil, əksinə tələbələrin yaxşı oxumaları üçün həvəsləndirmədir. Fərqi yoxdur, aşağı və ya yüksək ballı tələbə olsun, gediş haqqını hamı alacaq. Rustavili tələbənin yol pulu olmadığına görə təhsil ala bilmirəm kimi deməyə sözü olmayacaq. Biz bu proqramla buna nail olacağıq. Ola bilsin tələbə sosial müdafiəsiz olmasın, ancaq yaxşı oxusun, biz belə tələbələrə də kömək edirik”,- deyə Nino Kviria bildirib.

Xidmət rəhbərinin sözlərinə görə, yerli özünüidarənin təhsil haqqını ödəyəcəyi 50 tələbədən söhbət gedir.

Sosial proqrama qoşulmaq istəyi olan rustavili tələbələr meriyanın sosial xidmətinə müraciət etməlidirlər.

# DİL PROBLEMİ MƏKTƏBLƏRİN DİREKTORSUZ QALMASINA SƏBƏB OLUR

2017-ci ilin dekabr ayından etibarən Gürcüstan məktəblərində direktor olmaq istəyənlərdən dövlət dilini bilmək məcburi şəkildə tələb olunmağa başlanıldı. Test imtahanı və müsahibədən keçdikdən sonra namizədləri Təhsil Nazirliyi öz istəyinə uyğun məktəblərin Qəyyumlar Şurasına göndərir. Bundan sonra həmin məktəblərdə olan Qəyyumlar Şurası göndərilən namizədlərin məktəbə direktor olub-olmaması ilə bağlı sonuncu qərarı verir.

Gürcüstanın cənub-şərqində yerləşən Kvemo Kartli regionunun 19 məktəbində məktəb direktoru yoxdur. 19 məktəbin 12-si isə Azərbaycandilli məktəblərdir.

Təhsil Nazirliyi "iFact.ge"-yə verdiyi açıqlamasında məktəblərin direktoru vəzifəsi üçün hələ müsabiqə elan olunmadığını bildirib.

Qardabani bələdiyyəsinin Kosalı kənd məktəbi bir ildən çoxdur ki, direktorsuz fəaliyyət göstərir. 25 ildən çox gürcü dili müəllimi kimi fəaliyyət göstərən Sona İsmayılovanın sözlərinə görə, işlədiyi məktəbdə 1100 uşaq və cəmi bir direktor müavini var.

"Məktəbdə direktor yoxdur, Məmməd Xiyalov (direktor müavini) hər şeyi tək etməyə borclu deyil. Ona iclas çağırıb qiymətləndirmə qrupunu dəyişdirməyi dedik. O da bildirdi ki, yeni direktor təyin olunanda dəyişərik. Direktor müavini müəllimlər arasında dərs saatlarını bölüb, amma direktorsuz 80-90 müəllimin işləməsi nə dərəcədə düzgündür?" - İsmayılova belə deyir.

Onun sözlərinə görə, gürcü dilini bilmək direktorlar üçün vacibdir. Gürcü dili məktəblərdə həftədə 45 dəqiqə olmaqla 5 dəfə tədris olunur. Buna baxmayaraq, azərbaycanlı şagirdlər gürcü dilində ya az, ya da heç danışa bilmir.

"İclaslarda hər şeyi ona (direktora) tərcümə etməyəcəklər. O da gəlib məlumatı düzgün formada məktəbə çatdıra bilməyəcək. Gürcü dilini bilsə yaxşıdır", - Sona İsmayılova bildirir.

Nəzərli kənd məktəbi Kosalı məktəbindən 10 dəqiqəlik məsafədə yerləşir. Nəzərli kənd məktəbinin keçmiş direktoru, 68 yaşlı Elxan Abdullayev bu ilin sentyabr ayında səhhətinə görə öz ərizəsilə işdən çıxıb. Abdullayev hazırda məktəbdə coğrafiya müəllimi kimi fəaliyyət göstərir. Sentyabrdan bu günə qədər 580 şagird və 55 müəllimi olan məktəbə direktor hələ də təyin olunmayıb.

"Mən direktor olan zaman müavin yalnız dərs məsələləri ilə məşğul idi. Digər problemləri isə özüm həll edirdim. Direktorun təyin olunmaması uşaqların idarə olunmasını çətinləşdirir. Hamı işə biganə yanaşır", - keçmiş direktor belə deyir.

Elxan Abdullayev gürcü dilində sərbəst danışmağın məktəb direktorları üçün şərt olmadığını bildirir: "Gürcü dilini yaxşı bilmirəm, bir az başa düşürəm".

"Təyin olunan direktor Azərbaycan dilini bilməsə, uşaqlarla necə rəftar edəcək, müəllimlərlə necə ünsiyyət quracaq?" - Abdullayev deyir.

Nəzərli kənd məktəbində gürcü dili müəllimi kimi fəaliyyət göstərən 27 yaşlı Nübar Bayramova problemlərlə bağlı kimə müraciət edəcəyini bilmədiyini deyir:

"Bu məktəbdə, doğrudan da, problem çoxdur. Problemlərimizlə bağlı kimə müraciət edəcəyimizi bilmirik".

Giorgi Tautçidze 2015-ci ildə Təhsil Nazirliyi tərəfindən Kosalı kənd məktəbinə direktor vəzifəsi üçün namizəd kimi göndərilsə də, məktəbin Qəyyumlar Şurası onu deyil, azərbaycanlı namizədi seçib:

"Direktor sertifikatı aldım, sonra müsabiqə elan olundu, üç məktəb seçmişdim və onlardan biri Kosalı kənd ictimai məktəbi idi. Məktəbin Qəyyumlar Şurası məni deyil, qonşu kənddə dərs keçən müəllim namizədi seçdi".

"Kosalı kənd məktəbinə göndəriləndə şansımın az olduğunu bilirdim. Heç kim şuradan mənə səs vermədi", - deyən Giorgi Tautçidze hazırda Marneuli rayonunda rus məktəbində dərs keçir.

Təhsil üzrə ekspert və Vətəndaş İnkişafı İnstitutunun rəhbəri Tamar Mosiaşvilinin sözlərinə görə, direktor müəllimlərin məktəbə gətirilməsinə və onlar arasında dərs bölgüsünə cavabdehdir. Eyni zamanda direktor məktəbi üçüncü şəxslərlə münasibətlərdə təmsil edən şəxsdir:




"Məktəb direktorlarının təyin olunması məsələsi qaranlıqdır. Namizədin məktəblə davamlı əlaqəsi olmasının heç bir fərqi yoxdur. Təhsil Nazirliyi onu istədiyi yerə göndərəcək. Əgər məktəbin Qəyyumlar Şurası həmin namizədlərin arasından kimisə seçərsə, seçər, seçməzsə, bu zaman yenidən namizəd göndərilir, ya da direktor nazirlik tərəfindən təyin olunur", - Mosiaşvili belə deyir.

Onun sözlərinə görə, direktorların gürcü dilini bilməsi vacibdir.

"Məktəb kollektivinin gürcü direktor istəməməsi pisdir. Bir neçə məktəb bilirəm, hansı ki, etnik azlıqlar yaşayır və orada gürcü direktorlar fəaliyyət göstərir. Həmin məktəblər real olaraq inkişaf edirlər. Burada əsas problem dil problemidir. Əgər onlar məktəbin inkişaf etməsini istəyirlərsə, buna razı olmalıdırlar", - ekspert bildirib.

Mənbə: iFact.ge

# MAMUKA BAXTADZE: "TƏHSİL REFORMASI BÜTÜN PROBLEMLƏRƏ QALİB GƏLMƏK YOLU OLACAQ"



Gürcüstanın baş naziri Mamuka Baxtadzenin bəyanatına görə, Gürcüstanda növbəti böyük reforma təhsil sahəsində olacaq. Qeyd olunan məsələ ilə bağlı baş nazir 2018-ci ilin hökumət hesabatının təqdimatı zamanı danışıb.

Onun sözlərinə görə, təhsil sektorunda ümumi daxili məhsulda minimum 10-11%-lik hissə olacaq. Bu o deməkdir ki, təhsildə yatırımlar 3 dəfə artmalıdır.

"Mənə sual verirlər ki, Gürcüstanda növbəti böyük reforma nə olacaq. Gürcüstanda növbəti böyük reforma təhsil sahəsində olacaq. Gürcüstanın mövcud olan ən böyük zənginliyi və ən böyük kapitalı bizim vətəndaşlardır. Gürcüstanda çox böyük ağıl və istedad var. Təəssüf ki, Gürcüstan müstəqillik əldə etdiyi gündən məlum oldu ki, məhz təhsil sektorunun maliyyələşdirilməsi çox az idi. Bu çox təəssüf doğuran tendensiya idi və eyni zamanda bizim iqtisadi perspektivlərimizə mənfi təsir göstərirdi.

Biz bunların hamısını dəyişməyi planlaşdırırıq. 2019-cu ildə reformaya başlayacağıq. Reformaya əsasən məhz təhsil sektoru bizim iqtisadiyyatda dominant sektor olacaq. Yəni təhsil sektorunda ümumi daxili məhsulun minimum 10-11%-lik hissəsi olacaq. Bu o deməkdir ki, biz təhsildə yatırımları 3 dəfə artırmalıyıq.

Reforma hazırladıq və beş səviyyəyə böldük: məktəbəqədər təhsil, orta təhsil, peşə təhsili, ali təhsil və elm. Çıxış yolu və Gürcüstanı inkişaf etmiş ölkələr sırasına salmaq üçün yol budur.

Əminəm ki, məhz bu reforma ən əsas problemin həlli yolu olacaq. Əminəm ki, bu reforma bizim iqtisadiyyatın tam fərqli olması və ölkədə işsizlik, kasıblıq kimi problemlərə qalib gəlməyimiz üçün ruh yüksəkliyi gətirəcək. Əlbəttə, təkcə təhsil reforması ilə bu problemləri həll edə bilmərik, ancaq bu reforma problemlərin həllinin əsas lokomotivi olmalıdır", - deyə Mamuka Baxtadze bildirib.

# NİYƏ MANDATURLARIN BİR HİSSƏSİNİN ƏMƏK HAQQI 200 LARİ, DİGƏR HİSSƏSİNİN İSƏ 100 LARİ ARTIR – MANDATUR XİDMƏTİNİN İZAHATI

2019-cu ilin 1 yanvarından təhsil müəssisələrinin mandaturlarının bir hissəsinin əmək haqqı 200 lari, digər hissəsinin isə 100 lari artacaq və hamı üçün ələ alınan məbləğ 600 lari olacaq.



Ümumi təhsil müəssisələrinin mandatur xidmətinin administrativ idarəçiliyinin rəhbəri Şorena Zedqinizde bildirib ki, gələn ildən artmış əmək haqqı bütün mandaturlar üçün eyni olacaq.

"Əmək haqqının artması bütün mandaturlara eyni şəkildə aiddir. Ələ alınan məbləğ 600 lari olacaq, hazırda mandaturun maaşı 400 laridir", - deyə Şorena Zedqinidze bildirib.

Mandaturlardan bəzilərinin bildirdiyinə görə, tədris müəssisəsi mandaturlarının əmək haqqı fərqlidir. Müəyyən imtahanları vermiş və müvafiq sertifikat almış mandaturların əmək haqqı 500 lari, sertifikatı olmayanların isə 400 laridir.

Qeyd olunan məlumatı ümumi təhsil müəssisələrinin mandatur xidmətinin administrativ idarəçiliyinin rəhbəri də təsdiqləyib.

"Qeyd olunan imtahandan mandaturların yarıdan çoxu keçib, ancaq indiki mərhələdə söhbət bütün mandaturların bərabər əmək haqqı almasından gedir. Onlar arasında sertifikatı olanlar da yer alacaq. Bu halda əmək haqqı onlar üçün də artmış olur. Gürcüstan miqyasında ümumi təhsil müəssisələrində 1300 mandatur var və qeyd olunan dəyişikliklərdən sonra onların hamısının bərabər əmək haqqı olacaq", - Ş.Zedqinidze bildirib.

Mandaturlar yenidən imtahan verəcəklərmi və onlara sertifikat verilməsi davam etdiriləcəkmi sualına Şorena Zedqinidze imtahan və sertifikat verilməsi prosesinin davam etdirilməyəcəyi ehtimalının olduğunu deyib. Çünki prioritet əmək haqqının artması və bərabərləşdirilməsidir.

"Hələlik bu haqda söhbət getmir və heç başlamayıb da. Güman ki, imtahan və sertifikat verilməsi davam etməyəcək. İndiki mərhələdə üstünlük bütün mandaturların əmək haqlarının artırılmasıdır. Bilirsiniz ki, mandatur haqqında qanuna dəyişiklik daxil olub və bütün mandaturlar eyni şəkildə hazırlanacaq. Funksiya-öhdəlikləri eyni şəkildə artacaq və gücləndirilmiş formatda eyni şəkildə çalışmağa qoşulacaqlar və bütün mandaturların eyni şəkildə əmək haqqı olacaq", - bildirib Ş.Zedqinidze.

# GÜRCÜSTAN VƏTƏNDAŞLARI AVROPANIN HANSI ÖLKƏLƏRİNDƏ LEQAL İŞLƏ TƏMİN OLUNA BİLƏCƏKLƏR

*Fransa hakimiyyəti ölkədə Gürcüstan vətəndaşlarının leqal işlə təmin olunması haqqında qanun qəbul edəcək. Bu haqda Gürcüstanın xarici işlər naziri Davit Zalkaliani bəyanat verib.*

Nazirin sözlərinə görə, razılşamanın qüvvəyə minməsindən sonra Gürcüstanın gənc mütəxəssisləri, həmçinin ali təhsilini Fransada almış şəxslər müvəqqəti yaşayış vəsiqəsi ala və Fransada leqal olaraq işlə təmin oluna biləcəklər.

Qeyd edək ki, razılaşma Gürcüstan vətəndaşlarının Fransada işlə təmin olunması kimi, Fransa vətəndaşlarının da Gürcüstanda işlə təmin olunmasını nəzərdə tutur.

"Gürcüstan hökuməti və Xarici İşlər Nazirliyi Gürcüstan vətəndaşlarının leqal işlə təmin olunması baxımından tərəfdaş ölkələrlə razılaşma əldə etmək üçün aktiv şəkildə çalışır. Bizim çox əhəmiyyətli nəticələrimiz var. Fransa ilə razılaşma imzalamışıq və onun ratifikasiyasını da Fransa parlamenti edib.

Fransa prezidenti razılaşmanı imzalayıb və artıq qanun şəklində təqdim olunacaq. Bu, Gürcüstan vətəndaşlarına Fransada leqal işlə təmin olunma imkanı verəcək. Bu, çox vacib uğurdur", - bildirib Davit Zalkaliani.

Müqavilə müvəqqəti yaşayış vəsiqəsinin müddətini, iş yerinin kvotalarını tənzimləyir. Razılaşmaya əsasən, ildə gənc mütəxəssislər üçün 150 kvota, digər kateqoriyalara ümumilikdə 500 kvota ayrılıb.

Razılaşmanın ratifikasiyası ilə yanaşı fransız və gürcü tərəfləri digər məsələlərlə bağlı çalışmalara davam edəcəklər. Həmin məsələlər arasında Fransa əmək bazarında tələb olunan ixtisasların müəyyənləşdirilməsi, Gürcüstanda müvafiq mütəxəssislərin seçilməsi və başqa texniki məsələlər yer alır.

Xarici İşlər Nazirliyinin məlumatına görə, kvalifikasiyalı mütəxəssislərin müvəqqəti yaşayışı və dövri (sirkulyar) miqrasiya haqqında razılaşma üzərində bir neçə ölkə ilə çalışmalar gedir.

Müəssisənin bəyanatında deyildiyinə görə, Almaniya, İsrail, Portuqaliya, Yunanıstan və Bolqarıstanla danışıqlar gedir. Məlumata görə, Polşa ilə əmək miqrasiyasının pilot layihəsi həyata keçirilir və artıq Gürcüstanın 30 nəfərə yaxın vətəndaşı işlə təmin olunub.

2018-ci ilin avqustunda Gürcüstana səfəri zamanı Angela Merkel bildirdi ki, Almaniya Gürcüstana işlə təmin etmənin leqal, hüquqi baxımdan doğru olan yollarını göstərmək üçün iş kvotası yaradacaq və Gürcüstan rəsmi Berlinlə bu istiqamətdə danışıqları davam etdirir.

Qeyd edək ki, Almaniya Bundestaqı 19 dekabrda miqrasiya qanununu müzakirə edib və qanuna əsasən, hazırda mövcud olan miqrasiya prosedurlarını və leqal əmək miqrasiya qaydalarını tənzimləyəcək.

"Bu qanunvericiliklə nəzərdə tutulmuş qaydalar Gürcüstan vətəndaşlarına da aid olacaq. Bir tərəfdən bu yüksək kvalifikasiyalı kadrlara, eləcə də peşə təhsili kursunu bitirmiş iş axtaranlara aid olacaq. Təxminən üç həftə əvvəl araşdırma yayımlanıb ki, Almaniyaya iqtisadiyyatın inkişafı üçün təqribən əlavə 400000 işlə təmin edən şəxs lazımdır. Belə ki, Almaniyaya çox istiqamətlərdə yüksək kvalifikasiyalı və peşəkar təhsili olan kadrlar lazımdır", - bildirib Gürcüstanın Almaniyadakı səfiri Elquca Xokrişvili.

Maraqlı faktdır ki, Almaniyada sığınacaq almaq istəyi olan Gürcüstan vətəndaşlarının sayı hiss olunacaq qədər azalıb. Səfir bunu son dövrdə bu istiqamətdə atılmış addımlarla əlaqələndirir.

İsraildə sığınacaq axtaranların sayı da azalıb. Gürcüstanın İsraildəki səfiri Paata Kalandadzenin sözlərinə görə, qeyri-leqal miqrasiya problemi İsrailin Gürcüstanla vizasız gediş-gəliş rejimini birtərəfli olaraq qüvvəyə mindirdikdən sonra yaranıb. Qaydaya əsasən, Gürcüstan vətəndaşlarına 90 günlük turist, humanitar və şəxsi məqsədlər üçün ölkə ərazisində qalmaq imkanı verilirdi.

Ancaq bu, 2015-2016-cı illərdə 60 mindən çox Gürcüstan vətəndaşının siyasi sığınacaq istəmək üçün



İsrailin müvafiq orqanlarına müraicət etməsinə səbəb oldu. Bu proses Tbilisinin müvafiq addım atmayacağı halda Gürcüstana vizasız rejimin ləğv olunması məsələsini aktuallaşdırdı. Səfirin izahatına görə, bu gün bu say kəskin şəkildə azalıb, ancaq tendensiya qalmaqdadır.

İş miqrasiyası yalnız Gürcüstan vətəndaşları üçün maraqlı mövzu deyil. Dünyada əmək miqrantlarının sayı demək olar ki, gündəlik artır və onların sayı 164 milyonu aşıb. Onlardan 2/3 nəfəri zəngin ölkələrə gedir və bu ölkələrdə hər işlə təmin olunanın beşincisi xaricidir.

Miqrantların işlə təmin olunma səviyyəsi işsizliklə paralel artır. Buna görə yerli əhalinin narazılığı daha da çoxalır. Buna cavab olaraq zəngin ölkələrin hakimiyyətləri miqrasiya siyasətini sərtləşdirir. Buna görə də zaman keçdikcə orta gəlirli sahələr daha məşhur olur, – deyilir Beynəlxalq Əmək Təşkilatının (BƏT) araşdırmasında.

*İşlə təmin olunmaq istəyi olanlar üçün ən çox məşhur olan ölkələr arasında Çin, Braziliya, Rusiya, Belorusiya, Qazaxıstan, Azərbaycan və Türkmənistan yer alır.*

Müəllif: Salome ABULAŞVİLİ
Gürcü dilindən tərcümə: Aynurə ƏLİYEVA

## İQTİSADİYYAT NAZİRİ: 2017-Cİ İLDƏ BİZNES SAHƏSİNDƏ 41 MİN İŞ YERİ YARADILIB



Gürcüstanda işsizliyin səviyyəsi hər il azalır. Hökumətin həyata keçirdiyi iqtisadi siyasət nəticəsində hər il təxminən 30-40 min yeni iş yeri açılır. Bu haqda Gürcüstanın iqtisadiyyat naziri Giorgi Kobulia parlamentdəki çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, rəsmi statistikaya əsasən, 2017-ci ildə biznes sahəsində 41 min iş yeri yaradılıb.

G.Kobulia bildirib ki, ölkədə yoxsulluğun və işsizliyin səviyyəsi hər il azalır, amma bu azalma çox aşağı sürətlə gedir. Belə ki, 2015-ci ildə Gürcüstanda işsizliyin səviyyəsi 15 faiz, 2016-cı ildə 14 faiz, 2017-ci ildə isə 13,9 faiz təşkil edib.

"Bu gün ölkə əhalisinin sayı 3 milyon 700 min nəfər təşkil edir. Onların təxminən 2 milyonu əmək qabiliyyətlidir. Qalanları isə 15 yaşadək olan uşaqlar və təqaüdçülərdir", - deyə G.Kobulia deyib.

Nazir ölkədə yeni iş yerlərinin yaradılması və yoxsulluq həddinin azaldılması ilə bağlı təkliflər paketi hazırlandığını da qeyd edib.

## Aİ ÖLKƏLƏRİNDƏN SIĞINACAQ İSTƏYƏN GÜRCÜSTAN VƏTƏNDAŞLARININ SAYI İKİ DƏFƏ ARTIB

Avropa Komissiyasının hesabatına əsasən, bu ilin birinci yarısında 9680 Gürcüstan vətəndaşı Avropa İttifaqına (Aİ) üzv ölkələrdən sığınacaq istəyib.

Sənədə əsasən, illik müqayisədə Aİ ölkələrinə Gürcüstan vətəndaşlarının sığınacaqla bağlı müraciətləri iki dəfə artıb. Belə ki, 2017-ci ilin birinci yarısında sığınacaq istəyən Gürcüstan vətəndaşlarının sayı 4770 nəfər təşkil edib.

Hesabatda qeyd olunub ki, Gürcüstan vətəndaşlarının böyük əksəriyyəti 2905 nəfər olmaqla Fransadan sığınacaq istəyib. Daha sonra Almaniya (2700 nəfər), Yunanıstan



(595), İsveçrə (540 nəfər), İtaliya (530) və İspaniya (405) gəlir.

Avropa Komissiyası Aİ ölkələrinə sığınacaqla bağlı Gürcüstan vətəndaşlarının müraciətlərinin sayının artmasının narahatlıq doğurduğunu qeyd edib.

## AÇIQ ŞƏRAİTDƏ SATILAN ƏT VƏ ƏT MƏHSULLARINI ALMAQ TƏHLÜKƏLİDİRMİ?



Gürcüstanın Milli Ərzaq Agentliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı – FAO (Food and Agriculture Organization) əhalini gigiyenik normaların və ətin saxlanma şərtlərinin qorunmadığı yerlərdən ət və ət məhsullarını almaqdan çəkinməyə çağırır.

Qeyd edilməlidir ki, Yeni il günlərində ət məhsullarından istifadə artır. Artmış tələblər fonunda tez-tez ət istehsalı etibarlı mühitdə olmur, saxlama şərtləri qorunmur. Ətin mənşəyi, heyvanın kəsildiyi yer naməlumdur.

“Marneuli” Radiosu ilə söhbətində Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının layihə rəhbəri Mixeil Soxadze deyib ki, ət məhsullarının müvafiq prosedurlara əməl edərək saxlanılması vacibdir.

“Bayırda satılan məhsul – xüsusilə tez xarab olan məhsuldan danışıram – böyük ehtimalla həmin heyvan baytar yoxlamasının nəzarəti altında kəsilməyib. Və aydındır ki, insan sağlamlığı və həyatı üçün təhlükəli olması istisna deyil”, - bildirib Mixeil Soxadze.

O qeyd edib ki, hər bir vətəndaşın ət məhsullarını alan zaman satıcıdan məhsulun sənədini tələb etmək hüququ var. Sənəd ətin sağlamlığını təsdiq edir.

“Satıcı məcburdur ki, heyvanın, ətin mənşəyini təsdiq edən sənədi göstərsin. Əgər alıcını maraqlandırarsa Milli Ərzaq Agentliyinə də müraciət edə bilər və heyvanın sahibinin kim olduğunu və sallaqxanaya qədər hansı yolu keçdiyini də öyrənə bilər”, - deyib Mixeil Soxadze.

Milli Ərzaq Agentliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı – FAO-nun ət məhsullarının əldə edilməsi haqqında yayımladığı məlumatı təqdim edirik:

Heyvan əti alan zaman alıcı diqqət yetirməlidir: Ət təmiz, bağlı soyuducuda, müvafiq temperatur rejimini qorumaqla saxlanılmalıdır. Temperatur 2-dən 6 dərəcəyə kimi müəyyən edilib. Saxlama müddəti 48 saatdır.

Satılan ətin etiketində bu məlumatlar yer almalıdır:

- Ölkənin adı (sallaqxananın yerləşdiyi yer), sallaqxananın tanınması və ya şərti tanınma nömrəsi (heyvanın kəsildiyi yer); Eləcə də hazırlanma tarixi və saatı;
- Əgər ət Gürcüstanda doğulmuş, böyümüş heyvandan əldə olunubsa (“Mənşə-Gürcüstan”), etiketdə heyvanın identifikasiya nömrəsi qeyd olunmalıdır;
- Əgər ət idxal olunubsa, etiketdə idxal olunan ölkənin adı qeyd olunmalıdır;
- Müxtəlif mənşəli ət (inək, qoyun, donuz, keçi) soyuducuda ayrı-ayrılıqda yerləşdirilməlidir. Eləcə də müxtəlif ölkələrdən (Braziliya, Ukrayna və başqa) idxal olunan ətlər də ayrı-ayrılıqda yerləşdirilməlidir;
- Ətin saxlanıldığı soyuducuda etiketdəki məlumat görsənən yerdə olmalıdır;

FAO və Milli Ərzaq Agentliyi qeyri-rəsmi ticarət yerlərində ət və ətdən hazırlanan məhsulların qiymətinin xüsusi mağazalardan bir az fərqli olmasını nəzərə alır. Ancaq əhali bilməlidir ki, baytar nəzarətindən kənar kəsilmiş və istehsal olunmuş ət və heyvan mənşəli məhsullarda (süd, pendir, balıq və s.) insan xəstəliklərinin riski olduqca yüksəkdir. İnfeksiyaya yoluxmuş heyvandan insana həyatı və sağlamlığı üçün təhlükəli olan xəstəliklər keçə bilər.

Özünüzün və ailə üzvlərinizin sağlamlığının qayğısına qalın və şübhə hiss edən məqamda xahiş edirik Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin qaynar xəttinə zəng vurun: 15 01.

*Mənbə: “Marneuli” Radiosu*

## 2018-Cİ İLDƏ MARNEULİDƏ HƏYATA KEÇİRİLƏN İNFRASTRUKTUR LAYİHƏLƏRİ

Marneuli bələdiyyəsində 2018-ci ildə geniş miqyaslı layihələr həyata keçirilib və aktiv şəkildə davam edir.

Marneuli bələdiyyəsindən verilən məlumata görə, cari ildə bələdiyyə miqyasında ümumilikdə 23334 metr uzunluqda yola asfalt qatı çəkilib. Bu il “Minilliyin Çağırış Fondu”nun maliyyəsi ilə 5 ictimai məktəbin tam bərpası həyata keçirilib. Həmçinin cari ilin iyul ayında Marneuli şəhər 1 nömrəli ictimai məktəbin inşasına başlanılıb və işlər 2019-cu ilin aprel ayında başa çatacaq. Məktəb 196 uşaq üçün nəzərdə tutulub. Bunun üçün dövlət 1 514 760 lari xərcləyəcək.



Geniş miqyaslı layihələr yerli əhalinin içməli su ilə təmin edilməsi məqsədi ilə həyata keçirilir. Konkret olaraq indiki mərhələdə aktiv şəkildə Kiraç-Muğanlı kəndində içməli su sisteminin qurulması prosesi gedir, bu isə 304 ailənin içməli su ilə təmin edilməsi məqsədi ilə kəndin daxili şəbəkəsinin və sayğaclarının montajını nəzərdə tutur. Layihə regionlarda həyata keçiriləcək layihələr fondunun və yerli büdcənin birgə maliyyə dəstəyi ilə həyata keçirilir. Onun müqavilə dəyəri 704 787 larini təşkil edir.

Belə geniş miqyaslı layihə Sadaxlı kəndində də həyata keçirilir. Orada layihə çərçivəsində yeni kanalizasiya şəbəkəsinin qurulması planlaşdırılıb. Onun uzunluğu təqribən 29 km olacaq. Layihə başa çatdıqdan sonra əhali maneəsiz şəkildə içməli su ilə təmin olunacaq. Layihə regionlarda həyata keçirilən layihələr fondunun və yerli büdcənin birgə maliyyə dəstəyi ilə həyata keçirilir. Onun müqavilə dəyəri 1 305 935 laridir.

İçməli su şəbəkəsinin qurulması işləri Marneuli bələdiyyəsinin Ağməmmədli kəndində də gedir. İndiki mərhələdə layihə çərçivəsində mərkəzi magistral borularının çəkilməsi işləri həyata keçirilir.

Sereteli kəndində 9 Aprel adına parkın bərpa işləri aktiv şəkildə davam edir. Qeyd olunan kənddə mini stadionun inşası dekabr ayının əvvəlində başa çatıb.

Qeyd edilməlidir ki, bu il Sadaxlı və Algeti kəndlərində yeni uşaq bağçalarının açılışı oldu. 150 uşaq üçün nəzərdə tutulmuş bağça binaları iki mərtəbəlidir. Onların bayır və daxili infrastrukturu müasir standartlara uyğun qurulub və xüsusi ehtiyacı olan uşaqlar üçün şərait yaradılıb. İndiki mərhələdə Saimerlo kəndində uşaq bağçasının tikintisi həyata keçirilir.

Bu il Marneuli şəhərində vacib layihənin həyata keçirilməsinin əsası qoyuldu, bu layihə “Yenə də böyüyəcəklər” abidəsinin ətraf ərazisində parkın qurulmasını nəzərdə tutur. Layihənin dəyəri 1 131 679 laridir.

Cari ildə bələdiyyə miqyasında 200 ədəd 1100 litrlik tullantılar üçün urnalar yerləşdirilib.

Maradisi kəndində istirahət parkı qurulub və bunun üçün yerli büdcədən 27 819 lari ayrılıb. Həmçinin Didi Muğanlo kəndində parkın qurulması işləri başa çatıb. İşlər üçün 37 093 lari xərclənib.

Sereteli kəndi ərazisində yeddi ədəd sərnişinlər üçün dayanacaq quraşdırılıb. Qeyd olunan layihə üçün yerli büdcədən 29 000 lari ayrılıb.

## 2019-CU İLDƏN FERMERLƏR KƏND TƏSƏRRÜFATI TEXNİKASINI QRANT PROQRAMLARI İLƏ ƏLDƏ EDƏCƏKLƏR

2019-cu ildən Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi və Layihələrin İdarəsi üzrə Agentlik yeni “Məhsul götür” layihəsinə başlayır.



Qeyd olunan təşəbbüs kənd təsərrüfatı texnikasının dövlətin şərikli maliyyəsi ilə əldə olunmasını nəzərdə tutur.

Gürcüstanın 2019-cu il dövlət büdcəsinə əsasən, qrant çərçivəsində texnikanın dəyərinin 50%-i ödənəcək, bu isə ən azı 150 000 larini təşkil edir. Layihənin istifadəçiləri fərdi istehsalçılar, eləcə də hüquqi kommersial şəxslər (həmçinin kənd təsərrüfatı kooperativləri) ola bilərlər.

Layihənin həyata keçirilməsi üçün dövlət büdcəsində 4 milyon lari nəzərdə tutulub, bu vahid aqrolayihənin bir hissəsidir.

Ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı nazirinin müavini Giorgi Xaniaşvili qeyd edib ki, şərikli maliyyələşdirmə hər hansı kənd təsərrüfatı məhsulunun götürülməsinə aiddir.

Belə ki, East Fruit-in məlumatına görə, gələn ildən “Güzəştli aqrokredit” də (layihə 2013-cü ildə başlayıb) davam edəcək. Layihə çərçivəsində də fermerlər kənd təsərrüfatı texnikasını əldə edərkən dövlət maliyyəsi ala biləcəklər.

Müəllif: Nini Ketelauri

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

Yeni YOL

31 DEKABR 2018-ci İL

№021 (80)

# NƏRİMAN NƏRİMANOV HAQQINDA MONOQRAFİYA AZƏRBAYCAN VƏ GÜRCÜ DİLLƏRİNDƏ NƏŞR OLUNUB




Tanınmış ədəbiyyatşünas, publisist Vəli Məmmədovun ictimai-siyasi xadim, yazıçı, publisist, həkim Nəriman Nərimanov haqqında yazdığı monoqrafiya Azərbaycan və gürcü dillərində nəşr olunub. "Universal" nəşriyyatında nəşr edilən kitab ilk dəfə Bakıda 1957-ci ildə işıq üzü görüb.

Bakı, İrəvan, Tbilisi, Odessa, Kiyev, Sankt-Peterburq və Moskva şəhərlərinin arxiv və kitabxanalarında çalışmış müəllif çoxlu qiymətli və maraqlı sənədlər, fotoşəkillər, N.Nərimanovun sağ qalan qohumlarının, tələbə yoldaşlarının və dostlarının xatirələrini toplayıb.

Kitab Gürcüstan Azərbaycanlıları Milli Konqresinin sədri Əli Babayevin təşəbbüsü və maliyyə dəstəyi ilə işıq üzü görüb.

"Tbilisidə anadan olan N.Nərimanov Gürcüstanın paytaxtında boya-başa çatıb. Qori Müəllimlər Seminariyasında təhsil alan ədib soydaşlarımızın yığcam yaşadıqları Marneuli rayonunun Qızılhacılı kəndində müəllim, Tbilisi şəhərində həkim kimi fəaliyyət göstərib. Bütün bunları nəzərə alaraq kitabın gürcü dilinə tərcümə olunaraq oxuculara çatdırılmasını da məqsədəuyğun hesab etdik", - deyə Ə.Babayev AZƏRTAC-a bildirib.

O, qeyd edib ki, 1991-ci il noyabrın 20-də ermənі terroristləri tərəfindən vurulan helikopterdə həlak olan Vəli Məmmədovun yanvarın 7-də ad günüdür. Məhz həmin gün kitabın təqdimatını keçirmək və onun əziz xatirəsini yad etmək niyyətindəyik. Kitabın yeni nəşri N.Nərimanovun Bakıdakı və Tbilisi şəhərindəki ev muzeylərinə, eləcə də M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinə, kitabxanalara paylanılacaq.

Kitabın tərtibçisi və tərcüməçisi jurnalist-tədqiqatçı Mirzə Məmmədoğlu, redaktoru isə tanınmış gürcü yazıçısı Nariman Yaşağaşvilidir.

# BU MÖVSÜM YAYILMIŞ VİRUSLAR ARASINDA "DONUZ QRİPİ" VİRUSU ÇOXLUQ TƏŞKİL EDİR




Cari mövsümdə Gürcüstanda yayılmış virusların çoxu "Donuz qripi" deyilən H1N1 virusudur. Bu haqda Gürcüstan Milli Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Mərkəzinin direktorunun müavini Paata İmnadze bəyanat verib. Onun sözlərinə görə, qrip virusunun yayılması artıq çoxalıb və xəstəlik 100 min nəfərdən 185 nəfərində var.

"Vaxtında əhaliyə qripə qarşı peyvənddən keçmək tövsiyyəsini verirdik. İndi isə bizim tövsiyyəmiz budur ki, əllərini tez-tez yusunlar, virusa yoluxmuş insanlar evdə qalsınlar, işə və məktəbə getməsinlər, çünki yüngül formada xəstələnən şəxslər virus yayırlar. Virus uşaqlarda və böyüklərdə – hər yaşda olan şəxslər arasında yayılıbdır", - deyə Paata İmnadze bildirib.

Qeyd edək ki, ötən günlərdə səhiyyə naziri Davit Sergeenko Acara və Kutaisidə H1N1 virusundan iki nəfərin dünyasını dəyişdiyini bildirib.

# NOYABRDA KOMMERSİYA BANKLARININ GƏLİRİ 42 MİLYON LARİ ARTIB

Gürcüstan Milli Bankının məlumatına görə, cari ilin noyabrında kommersiya banklarının təmiz gəliri 90 milyon larini təşkil edib. Bu, ötən ilin noyabr ayının göstəricisindən 87% (42 milyon lari) çoxdur.

Ümumi hesabda noyabr ayında bankların gəliri 385 milyon lari təşkil edib. Bunun 284 milyonu faiz gəlirləri, 74 milyonu isə faizdən kənar gəlirlərdən ibarət olub.

# CAMAL MUSTAFAYEVİN XATİRƏSİ YAD EDİLİB



Tbilisidə, Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində alim, fəlsəfə elmləri doktoru, professor Camal Mustafayevin 90 illik yubileyi münasibəti ilə tədbir keçirilib.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin məsul əməkdaşı Fəxri Hacıyev çıxış edərək Camal Mustafayev haqqında fikirlərini bölüşüb, alimin elm və təhsil sahəsindəki xidmətlərindən söhbət açıb.

Fəxri Hacıyev qeyd edib ki, Camal Mustafayev 1928-ci ildə Qardabani rayonunun Kosalı kəndində anadan olub və 2017-ci ildə dünyasını dəyişib. Onun yazdığı elmi əsərlər, monoqrafiya və məqalələr bu gün də fəlsəfə elmi ilə məşğul olanlar üçün zəngin məlumat mənbəyidir.

Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin sədri, şair Rafiq Hümmət, jurnalist, tərcüməçi Emin Elsevər, parlamentin keçmiş deputatı Ramiz Bəkirov, Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri Nizami Məmmədzadə, politoloq Tengiz Txilava, şairlərdən Elbəyi Calaloğlu, Şövkət Dağlarqızı və başqaları çıxış edərək Camal Mustafayevlə bağlı xatirələrini, alimin fəlsəfi əsərləri barədə fikirlərini bölüşüblər.

Çıxışlarda alimin irsinin Gürcüstan universitetlərində və kənd ictimai məktəblərində təhsil alan azərbaycanlı tələbə və şagirdlər arasında təbliğ edilməsi, Kosalı kənd ictimai məktəbinə onun adının verilməsi təklifləri səsləndirilib.

# GÜRCÜSTAN GƏLƏN İL ELEKTRİK ENERJİSİ İDXALINI İKİ DƏFƏ ARTIRACAQ



2019-cu ildə Gürcüstan 2,8 milyon kilovatt/saat həcmində elektrik enerjisi idxal edəcək. Bu barədə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin gələn il üçün proqnoz balansında qeyd olunub.

İllik müqayisədə Gürcüstanın elektrik enerjisi idxalını iki dəfə artıracağı gözlənilir. Belə ki, builki idxal 1,4 milyon kilovatt/saat həcmində müəyyən olunub.

Gələn ildə idxalın maksimal həddinin 407,9 milyon kilovatt/saat həcmində mart ayında olacağı proqnozlaşdırılıb.

Proqnoza əsasən, 2019-cu ildə Gürcüstanın 14832,1 milyon kilovatt /saat həcmində elektrik enerjisi istehlak, 696,5 milyon kilovatt/saat həcmində isə elektrik enerjisi ixrac edəcəyi nəzərdə tutulub.

# 11 AY ƏRZİNDƏ AKSİZLƏRDƏN DÖVLƏT BÜDCƏSİNƏ 1.2 MİLYARD LARİDƏN ÇOX MƏBLƏĞ DAXİL OLUB



2018-ci ilin yanvar-noyabr aylarında dövlət büdcəsinin gəlirləri 10 678 637.7 min lari təşkil edib. Vergilərdən gələn gəlir isə 8 724 471.5 min lari olub. Həmçinin aksizlərdən 1 293 828.6 min lari gəlir daxil olub. Bu isə 2018-ci ilin ilk planının (1 450 000.0 min lari) 89.2%-dir.

Xatırladaq ki, bu ay 2018-ci ilin dövlət büdcəsinə dəyişikliklər daxil olub və nəticədə 2018-ci ildə aksizsiz proqnoz edilən göstərici 1,440,000.0 min lari dəyərində müəyyən edilib. Bu isə 2018-ci ilin ilkin planı ilə müqayisədə 10 milyon lari azdır.

Gəlir vergisi olaraq büdcəyə 11 ayda 2 626 950.0 min lari, qazanc olaraq 674 719.2 min lari, əlavə dəyər vergisi olaraq isə 4 044 268.3 lari daxil olub. Əmlak vergisi isə 16 min larini təşkil edib.

# 1151 ƏCNƏBİNİN GÜRCÜSTANA DAXİL OLMASINA İCAZƏ VERİLMƏYİB

2018-ci ilin noyabr ayında 1151 əcnəbinin Gürcüstana daxil olmasına icazə verilməyib. Gürcüstan Daxili İşlər Nazirliyinin məlumatına əsasən, 434 İran vətəndaşı Gürcüstana buraxılmayıb. İkinci yerdə Hindistan dayanır – 370 nəfər. Eyni zamanda, 46 Türkiyə, 44 Rusiya, 43 Özbəkistan, 42 Azərbaycan, 33 Türkmənistan, 30 Pakistan və 14 Ermənistan vətəndaşının Gürcüstana keçməsinə icazə verilməyib.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.